



*Şəkidə "Şəhər günü"*

# Nadir tarixi memarlıq abidələrinin məskəni

**Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə "Şəhər günü" bayram tədbiri keçirilib. "Şəhər günü"nün Şəkidə "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalının keçirildiyi günlərə təsadüf etməsi iştirakçılar tərəfindən sevinclə qarşılanıb.**

"Yuxarı Karvansaray" mehmanxana kompleksində keçirilən bayram tədbirinin iştirakçıları əvvəlcə Şəki sənətkarlarının əl işlərindən ibarət sərgiyə baxıblar.

Tədbirdə şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, 2712 illiyini qeyd edən qədim Şəki bütün dövrlərdə tariximizdə mühüm yer tutduğu üçün şəhər sakinlərinin bu günü bayram etməyə daha çox mənəvi haqqı var.

Qeyd olunub ki, Böyük İpək Yolu üzərində yerləşən Şəkinin nadir tarixi memarlıq abidələri - karvansaraylar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər onun qədim memarlıq üslubundan xəbər verir. Zəngin tarixi-mədəni irsin qorunması nəticəsində Şəki respublikanın mühüm turizm regionuna çevrilib. Azərbaycan memarlığının ən gözəl abidələri bu şəhərdə yerləşir və burada dövlət mühafizəsinə götürülmüş 134 arxeoloji və memarlıq abidəsi var. Onlardan Kiş kəndindəki Alban məbədi, Şəki Xan Sarayı dünya əhəmiyyətlidir.

Şəki sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olması bu şəhərə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq hüququ qazandırıb. 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iclasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Tədbirdə Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli çıxış edərək bildirib ki, Şəkidə mədəni-tarixi irsin qorunub saxlanmasına çox böyük diqqət göstərilir.

Sonra Şəki bələdiyyəsinin sədr müavini Səyyarə Musayeva şəhərin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə məlumat verib.

Rəsmi hissədən sonra bayram tədbirinin iştirakçıları rəngarəng konsert proqramını izləyiblər. Eldar Rəcəbovun rəhbərlik etdiyi Şəki Folklor Ansamblının, Şəkinin tanınmış ifaçılarının, həmçinin Qax rayonundan gəlmiş Qaxingiloy kənd Mədəniyyət evinin "Şvitkatso" xalq xoru və "İmedi" rəqs qrupunun çıxışları bayram tədbiri iştirakçılarının ürəyincə olub.

Tədbirin sonunda Şəki şəhərinin inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində, "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğunun ərazisində yerləşən tarixi binaların bərpasının layihələndirilməsi və dizayn işlərinin görülməsində xidmətlərinə, həmçinin Şəkinin mədəni həyatında fəal iştirakına, təhsil, idman sahəsində fərqləndiklərinə görə bir qrup şəxsə xatirə hədiyyələri təqdim olunub.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2024.- 9 iyul, (№ 141).- S.10.